# Türk respublikalarının müstəqilliyinin 30 illiyinə həsr olunan sərginin daha bir nümayişi









25-03-2021 143

A+ A-

Türk respublikalarının müstəqilliyinin 30-cu ildönümü münasibətilə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY tərəfindən təşkil olunan sərginin Türkiyənin şəhərlərində səyyar nümayişi davam edir. Belə tədbirlərdən biri martın 24-də Ankarada, Ostim Texniki Universitetində "Beynəlxalq mədəniyyət günləri" çərçivəsində gerçəkləşib.

Sərginin açılış mərasimində Azərbaycan Mədəniyyət Nazirliyinin TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı çıxış edib. O, TÜRKSOY-un türk dünyası mədəniyyətini və incəsənətini tanıtmaq üçün həyata keçirdiyi layihələrdən bəhs edib və Ostim Texniki Universitetinin keçirdiyi bu əhəmiyyətli tədbirə türk respublikalarının ustad fotoqraflarının çəkdikləri şəkillərdən ibarət sərgi ilə qatıldıqlarını bildirib: “Türk dünyası fotoqraflarının obyektivində əks olunan bu sərgi ilə üzv ölkələrimizin müstəqilliyinin 30-cu ildönümü tədbirlərini davam etdiririk. 1991-ci ildə Sovet İttifaqının dağılması ilə müstəqillik əldə etmiş beş respublikanın tarixi-mədəni irsi və müasir inkişafını əks etdirən fotoların böyük maraq və diqqətlə izlənəcəyinə ümid edirik”.

Tədbirdə TÜRKSOY-un fəaliyyətindən bəhs edən tanıtım filmi nümayiş etdirilib.

Sonra Elçin Qafarlı və Ostim Texniki Universitetinin rektoru Murat Yülekin iştirakı “Müstəqilliyinin 30-cu ilində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan” adlı fotosərginin rəmzi açılış lenti kəsilib və sərgiyə baxış keçirilib. Universitetin müəllim və tələbə heyəti də sərgini ziyarət edib.

Xatırladaq ki, TÜRKSOY-un təşkil etdiyi səyyar fotosərgi bundan öncə İzmir (Seferihisar), Aydın, Dənizli və İsparta şəhərlərində nümayiş olunub.

**Mehparə SULTANOVA**
**Ankara**

C9%99%20h%C9%99sr%20olunan%20s%C9%99rginin%20daha%20bir%20n%C3%BCmayi%C5%9Fi)

## Bu kateqoriyaya aid digər yazılar




(/page/news/56585/BMTnin-Insan-Huquqlari-Surasinda-Azerbaycanin-tesebbusu-ile-qetname-qebul-edilib.html)

25-03-2021 107

BMT-nin İnsan Hüquqları Şurasında Azərbaycanın təşəbbüsü ilə qətnamə qəbul edilib (/page/news/56585/BMTnin-Insan-Huquqlari-Surasinda-Azerbaycanin-tesebbusu-ile-qetname-qebul-edilib.html)